# QULİYEV NOFƏL ZAHİD OĞLU



Nofəl Quliyev 1963-cü ilin oktyabr ayının 4-də Şirvan şəhərində (keçmiş Əli Bayramlı) dünyaya göz açmışdır. 1971-ci ildə Şirvan şəhər 9 saylı orta məktəbinin birinci sinfinə getmiş, 1981-ci ildə təhsilini başa vurmuşdur. 1982-ci ildə N.Quliyev ordu sıralarına çağırılmışdır. 1984-cü ildə əsgəri xidmətini başa vurub bir müddət Bakı Məişət Kondisionerləri Zavodunda çalışır. Quliyev Nofəl 1984-cü ildə ailəsi ilə birlikdə Tümen şəhərinə köçür, burada işləyə-işləyə tikinti texnikumuna daxil olur. Altı il burada yaşadıqdan sonra doğma yurda dönür. DİN-nə müraciət edir. Çox çətinliklərdən sonra onu sıravi polis nəfəri kimi işə qəbul edirlər. Nofəl tez-tez döyüş bölgələrində ezamiyyətdə olurdu. Bu səfərlər adətən 10-15 gün çəkirdi. 12 dekabr 1991-ci ildə Goranboyun Todan kəndi erməni yaraqlılarının güclü hücumuna məruz qalmışdı. N.Quliyev yenə dostları ilə birlikdə silaha sarılaraq döyüşə yollandı. Qüvvələr nisbəti düşmənin xeyrinə idi. Buna baxmayaraq cəsur döyüşçülərimiz kəndin bir qarış torpağının belə düşmən əlində qalmasına imkan verməк istəmirdilər. Düşmən xeyli canlı qiivvə itirsə də, geri çəkilmirdi. Nofəl yaxınlıqdakı yüksəklikdə özünə mövqe seçmişdi. Polis yoldaşları artıq təhlükəsiz yerdəydilər. Nofəl döyüşə-döyüşə geri çəkilirdi. Ermənilərin əhatəsində qalan cəsur döyüşçü son damla qanına qədər döyüşdü, çoxlu sayda erməni faşistini məhv etdi vo düşmənə əsir düşməmək üçün son gülləsini ürəyinə sıxdı. N.Quliyev Şirvan şəhərində, Şəhidlər Xiyabanında dəfn edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı Fərmanı ilə Quliyev Nofəl Zahid oğluna (ölümündən sonra) "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Şirvan şəhər 9 saylı orta məktəb Qəhrəmanın adını daşıyır.